Azərbaycan Respublikası Vergilər Nazirliyinin Kollegiyasının
2017-ci il 27 yanvar 2017-ci il tarixli
1717050000006200 nömrəli Qərarı ilə təsdiq edilmişdir

# "Nəzarət olunan əməliyyatlar barədə Arayış"ın tərtib edilmə

# QAYDASI

"Nəzarət olunan əməliyyatlar haqqında Arayış" və "Nəzarət olunan əməliyyatlar haqqında arayışa Əlavə" "Azərbaycan Respublikasının Vergi Məcəlləsində dəyişikliklər edilməsi haqqında" Azərbaycan Respublikasının 2016-cı il 16 dekabr tarixli 454-VQD nömrəli Qanununun tətbiqi və "Azərbaycan Respublikasının Vergi Məcəlləsinin təsdiq edilməsi, qüvvəyə minməsi və bununla bağlı hüquqi tənzimləmə məsələləri haqqında" Azərbaycan Respublikası Qanununun və bu Qanunla təsdiq edilmiş "Azərbaycan Respublikasının Vergi Məcəlləsinin tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2000-ci il 30 avqust tarixli 393 nömrəli Fərmanında dəyişikliklər edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 23 dekabr tarixli Fərmanının 2.1.1-ci yarımbəndinin icrasını təmin etmək məqsədi ilə hazırlanmışdır.

Arayış aşağıdakı kimi tərtib edilir:

Arayışın əvvəlində göstərilən «**Qeyd**»dəki «verilmiş formanın tərtib edilməsi qaydalarını oxuyun» və « +, /, %, Z simvollarından istifadə etməyin, böyük çap hərflərlə qara və ya göy diyircəkli qələmlə doldurun» **tövsiyyələrə** ciddi əməl olunmalıdır. Arayış doldurularkən qaralamalara və düzəlişlərə yol verilmir.

Təqdim olunmuş arayışda aparılan hesablamalardakı riyazi səhvlər vergi orqanı tərəfindən düzəldilir və kompüter proqramı vasitəsi ilə düzgün hesablanmış vergi məbləğləri birbaşa baza göstəricilərinə daxil edilir.

«Arayışın təqdim edildiyi vergi orqanının adı» sətrin xanalarında böyük çap hərfləri ilə hər xanada bir hərf yazmaqla qeydiyyatda olduğu vergi orqanının adı göstərilməlidir.

**Misal:**

Arayış təqdim edildiyi vergi orqanının adı

| | | | | | | | | | | | | | | | | | | | | | | | | | |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| M | İ | L | L | İ | | G | Ə | L | İ | R | L | Ə | R | | D | E | P | A | R | T | A | M | E | N | T | İ |

**Bölmə I. Vergi ödəyicisi haqqında ümumi məlumat**

Arayışın “**Vergi ödəyicisi haqqında ümumi məlumat”** adlanan 1 №-li Bölməsində vergi ödəyicisinin arayışın aid olduğu hesabat dövründə fəaliyyəti ilə bağlı ümumi məlumatlar əks olunur.

1 –ci sətrində vergi ödəyicisinin VÖEN-i qeyd olunur.

- **Misal:** Vergi ödəyicisinin **1500315641** saylı VÖEN-i hər rəqəm ayrı xanada olmaqla bu qaydada yazılır:

| | | | | | | | | | | | |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| 1 | VÖEN | 1 | 5 | 0 | 0 | 3 | 1 | 5 | 6 | 4 | 1 |

2 –ci sətirdə böyük çap hərfləri ilə vergi ödəyicisi fiziki şəxs olduğu halda, onun adı, soyadı və atasının adı, hüquqi şəxs olduqda isə onun tam hüquqi adı hər simvol ayrı xanada olmaqla qeyd olunur.

- **Misal:** Arayış “**İnkişaf” Məhdud Məsuliyyətli Cəmiyyəti** tərəfindən təqdim edilərsə, müvafiq xanalarda vergi ödəyicisinin adı bu qaydada yazılır:

| | | | | | | | | | | | | |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| 2 | Vergi ödəyicisinin adı | İ | N | K | İ | Ş | A | F | | M | M | C |

3 –cü sətirdə “Əsas fəaliyyət növünün kodu” hissəsində hər xanada bir simvol olmaqla vergi ödəyicisinin əsas fəaliyyət növünün statistik kodu, “adı” hissəsində isə böyük çap hərfləri ilə əsas fəaliyyət növünün adı yazılır:

- **Misal: “**İnkişaf” Məhdud Məsuliyyətli Cəmiyyəti 567892 statistik kodu olan alqı-satqı fəaliyyəti ilə məşğul olur. Bu halda müvafiq xanalar aşağıdakı qaydada doldurulur:

| | | | | | | | | | | | | | | | | | | | |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| **3** | **Əsas fəaliyyət növünün kodu** | 5 | 6 | 7 | 8 | 9 | 2 | **adı** | a | l | ı | ş | - | s | a | t | ı | ş | |

4 –cü sətirdə təqdim olunan arayışın “Cari” və ya “Dəqiqləşdirilmiş” olmasından asılı olaraq müvafiq xanada “**X”** işarəsi qoyulur.

- **Misal: “**İnkişaf” Məhdud Məsuliyyətli Cəmiyyəti cari hesabat dövrü üçün bəyannamə təqdim edirsə, müvafiq xanada işarə bu qaydada qoyulur:

| X | - **Cari** | | - **Dəqiqləşdirilmiş** |
|---|---|---|---|
| Hesabat ili üçün növbəti ilin mart ayının 31-dən gec olmayaraq təqdim edilir | | Əvvəlki hesabat dövrləri üzrə dəqiqləşmənin aparılması zəruri olduğu hallarda səyyar vergi yoxlamasının başladığı günədək təqdim edilir | |

5 –ci sətirdə arayışın aid olduğu hesabat ili hər xanada bir simvol olmaqla qeyd olunur.

**Misal:** "İnkişaf" Məhdud Məsuliyyətli Cəmiyyəti **2016-ci il** üçün arayış təqdim edirsə vergi dövrü 5 №-li sətirdə aşağıdakı qaydada yazılır:

| 5 | Vergi dövrü | 2 | 0 | 1 | 6 | il |
|---|---|---|---|---|---|---|

**Bölmə 2. Nəzarət olunan əməliyyatlar barədə məlumat**

Arayışın 2-ci bölməsinin nəzarət olunan əməliyyatlarda "Əməliyyatın tərəfi olan digər şəxs" sütununda arayışı təqdim edən vergi ödəyicisinin nəzarət olunan əməliyyat apardığı digər şəxs barədə məlumatların, eləcə də, həmin əməliyyatların hansı əsasla nəzarət olunan əməliyyat hesab edildiyi göstərilir. Həmin sütunun 2-ci "Nəzarət olunan əməliyyat hesab edilməsi üçün əsas (VM-in 14-1.2.1, 14-1.2.2 və ya 14-1.2.3 maddəsi)" altsütununda aparılan əməliyyatın Vergi Məcəlləsində hansı maddəyə (maddələrə) əsasən nəzarət olunan əməliyyat hesab edilməsi Vergi Məcəlləsinin müvafiq maddəsinin (maddələrinin) nömrəsi göstərilməklə yazılır. Vergi Məcəlləsinin yalnız 14-1.2.3-cü maddəsi göstərilərsə, "Nəzarət olunan əməliyyatlar haqqında arayışa Əlavə" doldurulmur.

"Əməliyyatın tərəfi olan digər şəxs" sütununun 3-cü "Adı" altsütununda həmin digər şəxs fiziki şəxs olduğu halda, onun adı, soyadı və atasının adı, hüquqi şəxs olduqda isə, tam hüquqi adı qeyd olunur. Həmin sütunun alt sütunları olan "Rezidentlik ölkəsi", "Qeydiyyat ölkəsi" və "VÖEN" hissələrində əməliyyat aparan digər şəxsin rezident və qeydiyyatda olduğu ölkələrin 3 hərfli kodu (ISO country code) və rezidentlik ölkəsindəki VÖEN nəzərdə tutulur.

- **Misal:** "İnkişaf MMC" rezidentlik və qeydiyyat ölkəsi Belçika olan İnternational Co şirkəti il Vergi Məcəlləsinin 14-1.2.1-ci maddəsinə əsasən nəzarət olunan əməliyyat həyata keçirir.

| **Əməliyyatın tərəfi olan digər şəxs** | | | | |
|---|---|---|---|---|
| **Nəzarət olunan əməliyyat hesab edilməsi üçün əsas (VM-in 14-1.2.1, 14-1.2.2 və ya 14-1.2.3 maddəsi)** | **Adı** | **Rezidentlik ölkəsinin kodu** | **Qeydiyyat ölkəsinin kodu** | **VÖEN** |
| **2** | **3** | **4** | **5** | **6** |
| 14-1.2.1 | International Co. | BEL | BEL | 25652654654 |

- Arayışın 2-ci bölməsinin 7-ci “Əməliyyatın predmeti olan malın (xidmətin) adı” sütununda göstərilən xidmətin adı və ya alınan/satılan malın adı yazılır.

**Misal:**

| Əməliyyatın predmeti olan malın (xidmətin) adı |
|---|
| **7** |
| Lenovo notebook |

- Arayışın 2-ci bölməsinin 8-ci, 9-cu və 10-cu sütunlarında “əməliyyatın” dövrü və ya konkret tarixi yazılır:

**Misal:**

| Əməliyyatın | | |
|---|---|---|
| Dövrü | | Tarixi |
| -dən | -dək | |
| ***8*** | ***9*** | ***10*** |
| 01.06.2016 | 01.08.2016 | |

- Arayışın 2-ci bölməsinin 11-ci sütununda “Əməliyyatın növü (alış-satış)” hissəsinə aparılan əməliyyatın növü qeyd olunur.

**Misal:**

| Əməliyyatın növü (alış-satış) |
|---|
| **11** |
| satış |

- Arayışın 2-ci bölməsinin “Müqavilə” sütununun 12-ci “Nömrəsi” altsütununa müqavilənin nömrəsi və 13-cü “Tarixi” altsütununda müqavilənin imzalandığı tarix yazılır.

**Misal:**

| Müqavilə | |
|---|---|
| Nömrəsi | Tarixi |
| **12** | **13** |
| 24/36-56 | 30.12.2016 |

- Arayışın 2-ci bölməsinin 14-cü sütununda “Mənşə ölkəsi” hissəsinə malın istehsal olunduğu ölkənin kodu və ya xidməti göstərən ölkənin kodu (İSO country code) yazılır.

| Mənşə ölkəsinin kodu |
|---|

**Misal:**

| 14 |
|---|
| CHN |

- Arayışın 2-ci bölməsinin 15-ci sütununda "Çatdırılma şərtləri(İnkoterms 2015)" hissəsinə malın istehsal olunduğu ölkənin kodu və ya xidmət göstərən ölkənin kodu yazılır.

- **Misal:**

| **Çatdırılma şərtləri (İnkoterms 2015)** |
|---|
| **15** |
| *CIF Brussel* |

- Arayışın 2-ci bölməsinin 16-cı "İstehsalçı" sütununda əməliyyatın predmeti olan malı istehsal edən şirkətin adı yazılır. Məs: B şirkəti C müştərisinə A şirkətinin xidmətlərini təklif edə bilər. Burada əsas xidmət göstərən şirkət dedikdə A şirkəti nəzərdə tutulur.

**Misal:**

| **İstehsalçı** |
|---|
| **16** |
| Lenovo Co. |

- Arayışın 2-ci bölməsinin 17-ci "Əmtəə nişanı" sütununda malın əmtəə nişanı yazılır.

**Misal:**

| **Əmtəə nişanı** |
|---|
| **17** |
| *Lenovo Laptop* |

- Arayışın 2-ci bölməsinin 18-ci "Ölçü vahidi" sütununda malın ölçü vahidi (kq, ton, $m^3$, ədəd, vaxt və.s.) yazılır.

**Misal:**

| **Ölçü vahidi** |
|---|
| **18** |
| *ədəd* |

- Arayışın 2-ci bölməsinin 19-cu "Həcm və ya miqdar" sütununda malın və xidmətin həcmi və ya miqdarı rəqəmlə ifadə olunur.

**Misal:**

| Həcm və ya miqdar |
| --- |
| **19** |
| 1000 |

- Arayışın 2-ci bölməsinin 20-ci "Ödəniş valyutası" sütununda aparılan əməliyyat zamanı edilən ödənişlərin valyuta növü yazılır:

**Misal:**

| Ödəniş valyutası |
| --- |
| **20** |
| ABŞ dolları |

- Arayışın 2-ci bölməsinin 21-ci sütununda "Vahidin ödəniş valyutasında qiyməti (ƏDV, aksiz və gömrük rüsumları nəzərə alınmadan) valyutanın min vahidi ilə" hissəsinə əməliyyat predmeti olan məhsulun bir vahidinin ödəniş valyutasında qiyməti (ödəniş valyutasının min vahidi ilə).

**Misal:**

| Vahidin ödəniş valyutasında qiyməti (ƏDV, aksiz və gömrük rüsumları nəzərə alınmadan) ödəniş valyutasının min vahidi ilə |
| --- |
| **21** |
| *0.305* |

- Arayışın 2-ci bölməsinin "Ümumi qiymət (ƏDV, aksiz və gömrük rüsumları nəzərə alınmadan)" hissəsinin 22-ci altsütununda əməliyyat predmeti olan məhsulun və ya xidmətin valyutanın min vahidi ilə ödəniş valyutasında və 23-cü altsütununda əməliyyat predmeti olan məhsulun və ya xidmətin AZN-lə(min vahid ilə) ümumi qiyməti yazılır.

| Ümumi qiymət (ƏDV, aksiz və gömrük rüsumları nəzərə alınmadan) | |
| --- | --- |
| **Ödəniş valyutasının min vahid ilə** | **AZN min vahid ilə** |
| *22* | *23* |
| 305 | 550 |

**Bölmə 3. Nəzarət olunan əməliyyatlar üzrə tətbiq edilən transfer qiymətləndirilməsi haqqında məlumat**

- Arayışın 3-cü bölməsinin 2-ci Müqayisə edilən əməliyyatlar haqqında məlumatın mənbəyi" sütununda "Transfer qiymətlərinin müəyyən edilməsi və tətbiqi Qaydaları"nın 7-ci bəndində nəzərdə tutulan və vergi ödəyicisi tərəfindən istifadə edilmiş məlumat mənbəyinin (mənbələrinin) adı qeyd edilir.

**Misal:**

| Müqayisə edilən əməliyyatlar haqqında məlumatın mənbəyi |
|---|
| 2 |
| Thomson Reuters |

- Arayışın 3-cü bölməsinin "Müqayisə edilən dövrü" hissəsinə müqayisə edilən əməliyyatın dövrü yazılır:

**Misal:**

| Müqayisə edilən dövr | |
|---|---|
| tarixdən | tarixədək |
| 3 | 4 |
| *21.06.2016* | 06.08.2016 |

- Arayışın 3-cü bölməsinin 5-ci "Seçilmiş üsul" sütununda Vergi Məcəlləsinin 14-1-ci maddəsində və transfer qiymətinin müəyyənləşdirilməsi üçün vergi ödəyicisi tərəfindən istifadə olunan üsulun adı yazılır:

**Misal:**

| Seçilmiş üsul |
|---|
| 5 |
| Qiymətlərin müqayisəsi üsulu |

- Arayışın 3-cü bölməsinin 6-ci "Müqayisə edilən göstəricinin adı" sütununda müqayisə edilən göstəricinin adı, məs: qiymət, marja, xüsusi çəki göstəricilərindən birinin adı yazılır.

**Misal:**

| Müqayisə edilən göstəricinin adı |
|---|
| 6 |
| Qiymət |

- Arayışın 3-cü bölməsinin 7-ci sütununda "Müəyyən edilən göstərici nəzərə alınmaqla, malın (işin, xidmətin) hesablanan dəyəri" hissəsində müqayisə edilən göstərici nəzərə alınmaqla malın və ya xidmətin hesablanmış ümumi qiyməti AZN min vahidi ilə yazılır:

**Misal:**

| Müəyyən edilən göstərici nəzərə alınmaqla, malın (işin, xidmətin) ümumi qiyməti (min AZN-lə) |
|---|
| **7** |
| 620 |

- Arayışın 3-cü bölməsinin 8-ci sütununda "Malın (işin, xidmətin) faktiki qiyməti" malın işin və ya xidmətin müqavilə əsasında qiyməti və ya faktiki qiyməti min AZN vahidi ilə yazılır.

**Misal:**

| Malın (işin, xidmətin) faktiki ümumi qiyməti (min AZN-lə) |
|---|
| **8** |
| 550 |

- Arayışın 3-cü bölməsinin 9-cu "Transfer qiyməti tətbiq edilməklə hesablanan" sütununda transfer qiyməti nəzərə almaqla hesablanan əlavə gəlir və azaldılan xərc AZN min vahidi ilə yazılır. Bu zaman transfer qiyməti nəzərə alınmaqla hesablanan ümumi transfer qiyməti ilə malın (işin, xidmətin) faktiki qiyməti arasında fərq tapılır.

| Transfer qiyməti tətbiq edilməklə hesablanan (AZN min vahidlə) | |
|---|---|
| **əlavə gəlir** | **azaldılan xərc** |
| 70 | |

**Nəzarət olunan əməliyyatlar barədə arayışa Əlavənin**

**tərtib edilmə qaydası**

**Qarşılıqlı surətdə asılı şəxs barədə məlumat**

Nəzarət olunan əməliyyatlar barədə arayışa Əlavənin 1-ci Bölməsinin 2-ci "VÖEN", 3-cü "Şəxsin adı", 4-cü "Ünvanı", 5-ci "Qeydiyyat ölkəsinin kodu", 6-cı "Rezidentlik ölkəsinin kodu" sütunlarında müvafiq olaraq Vergi Məcəlləsinin 14-1.2-ci və həmin Məcəllənin 18-ci maddəsinə əsasən müəyyən edilmiş şəxsin rezidentlik ölkəsindəki VÖEN -i, şəxs fiziki şəxs olduğu halda, onun adı, soyadı və atasının adı, hüquqi şəxs olduqda isə, onun tam hüquqi adı, ünvanı, rezident və qeydiyyatda olduğu ölkələrin 3 hərfli kodu (ISO country code) nəzərdə tutulur.

**Misal:**

| **VÖEN** | **Şəxsin adı** | **Ünvanı** | **Qeydiyyat ölkəsinin kodu** | **Rezidentlik ölkəsinin kodu** |
|---|---|---|---|---|
| **2** | **3** | **4** | **5** | **6** |
| 2656564456 | B Co | John Doe 23, Brussel, Belçika | BEL | BEL |

1-ci Bölmənin "Bir şəxs digər şəxsin əmlakında (nizamnamə kapitalında) bilavasitə və ya dolayısı ilə iştirak edirsə və onun iştirak payı və ya səs hüququ azı 20 faizdirsə" sütunun 7-ci (faizlə), 8-ci "Valyutanın növü" və 9-cu "Məbləğ" alt-sütunlarına iştirak payının faizi, iştirak payının valyuta ilə ifadəsi və məbləği yazılır.

**Misal:**

| **Bir şəxs digər şəxsin əmlakında (nizamnamə kapitalında) bilavasitə və ya dolayısı ilə iştirak edirsə və onun iştirak payı və ya səs hüququ azı 20 faizdirsə;** | | |
|---|---|---|
| **Faizlə** | **Valyutanın növü** | **Məbləğ** |
| ***7*** | ***8*** | ***9*** |
| 35 | ABŞ | 200.000 |

1-ci Bölmənin 9- cu “Bir şəxs özünün xidməti vəziyyətinə görə digər şəxsə tabedir və ya bir şəxs digər şəxsin bilavasitə və ya dolayısı ilə nəzarətindədirsə tabeçilik və ya nəzarətin forması” sütununda tabeçilik və ya nəzarətin forması yazılır.

**Misal:**

| **Bir şəxs özünün xidməti vəziyyətinə görə digər şəxsə tabedir və ya bir şəxs digər şəxsin bilavasitə və ya dolayısı ilə nəzarətindədirsə tabeçilik və ya nəzarətin forması** |
|---|
| ***10*** |
| Baş ofis |

1-ci Bölmənin “Şəxslər üçüncü şəxsin birbaşa və ya dolayısı ilə nəzarətindədirsə üçüncü şəxs barədə məlumat” hissəsinin 10-cu “Adı”, 11-ci “Ünvanı”, 12-ci “Qeydiyyat ölkəsi”, 13-cü “Rezidentlik ölkəsi” sütunlarında müvafiq olaraq üçüncü şəxsin adı (vergi ödəyicisi fiziki şəxs olduğu halda, onun adı, soyadı və atasının adı, hüquqi şəxs olduqda isə, onun tam hüquqi adı), ünvanı, rezident və qeydiyyatda olduğu ölkələrin 3 hərfli kodu (ISO country code) nəzərdə tutulur.

**Misal:**

| **Şəxslər üçüncü şəxsin birbaşa və ya dolayısı ilə nəzarətindədirsə üçüncü şəxs barədə məlumat** | | | |
|---|---|---|---|
| **Adı** | **Ünvanı** | **Qeydiyyat ölkəsinin kodu** | **Rezidentlik ölkəsinin kodu** |
| ***11*** | ***12*** | ***13*** | ***14*** |
| Inter Co | 294 Farm,Ottava Kanada | CAN | CAN |

1-ci Bölmənin “Şəxslər üçüncü şəxsə birbaşa və ya dolayısı ilə birgə nəzarət edirlərsə, üçüncü şəxs barədə məlumat” hissəsinin 15-ci “Adı”, 16-cı “Ünvanı”, 17-ci “Qeydiyyat ölkəsi”, 18-ci “Rezidentlik ölkəsi” sütunlarında müvafiq olaraq Vergi Məcəlləsinin 18.2.4-cü maddəsinin məqsədləri baxımından üçüncü şəxsin adı (vergi ödəyicisi fiziki şəxs olduğu halda, onun adı, soyadı və atasının adı, hüquqi şəxs olduqda isə, onun tam hüquqi adı), ünvanı, rezident və qeydiyyatda olduğu ölkələrin 3 hərfli kodu (ISO country code) nəzərdə tutulur.

**Misal**

| Şəxslər üçüncü şəxsə birbaşa və ya dolayısı ilə birgə nəzarət edirlərsə üçüncü şəxs barədə məlumat | | | |
|---|---|---|---|
| **Adı** | **Ünvanı** | **Qeydiyyat ölkəsinin kodu** | **Rezidentlik ölkəsinin kodu** |
| ***15*** | ***16*** | ***17*** | ***18*** |
| Parent Co | Road 45, Helsinki, Finlandiya | FIN | FIN |

1-ci Bölmənin 18-ci "Vergi Məcəlləsinin 13.2.7-ci maddəsində göstərilən ailə üzvləri" sütununda Vergi Məcəlləsinin 13.2.7-ci maddəsində göstərilən ailə üzvlərindən biri yazılır.

**Misal:**

| VM-nin 13.2.7-ci maddəsində göstərilən ailə üzvləri |
|---|
| ***19*** |
| Valideynlərin bacıları |

1-ci Bölmənin "Daimi nümayəndəliyin baş ofisi olan qeyri-rezidentin özü və ya onun başqa dövlətlərdə yerləşən hər hansı nümayəndəliyi, filialı və digər bölməsi barədə məlumat" hissəsinin 20-ci "Adı", 21-ci "Ünvanı", 22-ci "Qeydiyyat ölkəsi", 23-cü "Rezidentlik ölkəsi" sütunlarında müvafiq olaraq daimi nümayəndəliyin baş ofisi olan qeyri- rezident və ya onun başqa dövlətlərdə yerləşən hər hansı nümayəndəliyi, filialı və digər bölməsinin adı (vergi ödəyicisi fiziki şəxs olduğu halda, onun adı, soyadı və atasının adı, hüquqi şəxs olduqda isə, onun tam hüquqi adı), ünvanı, rezident və qeydiyyatda olduğu ölkələrin 3 hərfli kodu (ISO country code) nəzərdə tutulur.

**Misal:**

| Daimi nümayəndəliyin qeyri-rezidentin özü və ya onun başqa dövlətlərdə yerləşən hər hansı nümayəndəliyi, filialı və digər bölməsi barədə məlumat | | | |
|---|---|---|---|
| **Adı** | **Ünvanı** | **Qeydiyyat ölkəsinin kodu** | **Rezidentlik ölkəsinin kodu** |
| ***20*** | ***21*** | ***22*** | ***23*** |
| ABC Co | Small road 36, Belçika | BEL | BEL |